AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MƏDƏN VERGİSİ

BAKI – 2026

## Mədən vergisinin ödəyicisi kimlərdir?

Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir.

## Mədən vergisini necə hesablamalısınız?

- **Faydalı qazıntılar üzrə**

  **xam neftə görə**

  - mədən vergisinin dərəcəsi xam neftin hər tonuna görə **12** manat,

  **təbii qaz və kondensatlara görə isə**

  - təbii qazın və kondensatların hər min kubmetrinə görə **15** manat məbləğində

- **Filiz faydalı qazıntılara (bütün növ metallara) görə**
  - mədən vergisinin dərəcəsi onların topdansatış qiymətinin 3 faizi məbləğində müəyyən edilir.

***Topdansatış qiyməti:**

- Vergi ödəyicisinin çıxardığı faydalı qazıntılar üçün müəyyən etdiyi (əlavə dəyər vergisiz) faktiki buraxılış (satış) qiyməti (bazar qiymətindən aşağı olmayan),
- Bu qiymətlər dövlət tərəfindən müəyyən edildikdə isə tənzimlənən qiymətlərdir.

**!**

**Unutmayın ki...**

Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən, hasil edilmiş neftin və qazın miqdarından texnoloji prosesl ə əlaqədar quyuya geri vurulan neftin və qazın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən normativlər əsasında çıxılır.

## Qeyri-filiz faydalı qazıntılar üzrə

Növündən asılı olaraq hər kub metr üçün yodlu bromlu sular **0,04 manat**, mişar daşları **2** manat, qiymətli və yarımqiymətli bəzək daşları **6** manat, duz **6** manat, mineral sular **10** manat

aşağıda sadalananlar üzrə isə **hər kub metri üçün 1  manat**

- seolit
- barıt
- çınqıl xammalı
- bentonit  gilləri
- kərpic-kirəmit gilləri
- vulkan külü və pemza
- yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər
- sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü)
- tikinti qumları
- kvars qumları
- gips, gəc
- üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı)

## Mədən vergisinin bəyannaməsini nə zaman təqdim etməli və ödənişləri necə həyata keçirməlisiniz?

- Mədən vergisinin bəyannaməsini hesabat ayından **sonrakı ayın 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməlisiniz.
- Mədən vergisinin məbləğini faydalı qazıntıların çıxarıldığı aydan **sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlisiniz.**

**QEYD:** Hesablanmış mədən vergisinin məbləği məhdudlaşdırılmayan gəlirdən çıxılan xərclərə aid edilir.

## Vergi azadolmaları

Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VEGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**